COP29 Baku Azerbaijan

**Yaşıl dünya naminə həmrəy olaq!**

**29 sentyabr ölkəmizdə turizm işçilərinin peşə bayramıdır. Azərbaycanın dünya miqyasında artan nüfuzu, müxtəlif ölkələrlə viza rejiminin sadələşdirilməsi turizmin inkişafına şərait yaradır. Son illərdə Azərbaycanda keçirilən çoxsaylı tədbirlər xarici ölkələrdən gələn qonaqların marağına səbəb olur, eyni zamanda regionların inkişafına müsbət təsir göstərir.**

# COP29-da "Turizm Günü" qeyd olunacaq



Prezident İlham Əliyevin 2018-ci il 20 aprel tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Azərbaycan Dövlət Turizm Agentliyinin yaradılması bu sahədə reallaşdırılan proseslərə kompleks yanaşmanın məntiqi nəticəsi kimi özünü göstərir.

Qeyd etmək lazımdır ki, Dövlət Turizm Agentliyi tərəfindən turizmin formalaşdırılması, bu sahədə siyasətin həyata keçirilməsi və ölkənin turizm potensialının xarici bazarlarda tanıdılması, tabeliyindəki qoruqlarda tarix, mədəniyyət və təbiət abidələrinin, maddi-mədəni irsin qorunması ilə yanaşı, turistlər üçün daha maraqlı məkana çevrilməsi istiqamətində genişmiqyaslı işlər görülməyə başlanılıb. Belə ki, əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir.

**Müsahibimiz Azərbaycan Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynovadır.**







***–Azərbaycanın turizm potensialının tanıdılması üçün hansı tədbirlər həyata keçirilir? Gəlmə turizm statistikası rəqəmləri üzrə artım varmı?***

–Ölkəmizin zəngin turizm potensialı, mövcud turizm məhsulları hər il dünyanın müxtəlif ölkələrində təşkil olunan sərgilərdə və beynəlxalq tədbirlərdə tanıdılır və təbliğ olunur. Tanınmağa və daha çox turistin cəlb edilməsinə nail olmaq əsas məqsəddir. Həmçinin Azərbaycanın turizm sahəsinin nümayəndələri ilə hədəf ölkələrdən xarici turizm nümayəndələri arasında çoxsaylı B2B formatlı görüşlər və təqdimat tədbirləri keçirilir. Eləcə də xarici media nümayəndələrinin ölkəmizə səfərləri təşkil olunur, BBC, CNN, Euronews kimi qlobal media kanallarında, beynəlxalq media platformalarında, onlayn sosial şəbəkələrdə ölkəmizin turizm potensialı haqqında məlumatlar geniş izləyici kütləsinin diqqətinə çatdırılır. Aparılan marketinq və təbliğat tədbirləri sayəsində pandemiyadan əvvəlki rəqəmlərin bərpası sürətlə davam edir. Bu ilin yanvar-avqust aylarında 1 748 000-dən çox xarici vətəndaş ölkəmizə gəlib və bu rəqəm ötən illə müqayisədə 30% artım deməkdir. Cari dövr üçün ilk 10-luqda Rusiya, Türkiyə, Hindistan, İran, Səudiyyə Ərəbistanı, Gürcüstan, Qazaxıstan, Pakistan, BƏƏ, Özbəkistan kimi ölkələr yer tutur. İlin sonuna qədər bu rəqəmlərin 2 750 000-ə çatması proqnozlaşdırılır.

***–Qarabağa xarici turistlərin səfəri mümkündürmü?***

–Ötən ildən etibarən "Yolumuz Qarabağa" portalı vasitəsilə Şuşa, Suqovuşan və Laçına fərdi minik avtomobili ilə səfər imkanı mövcuddur. Həmçinin Şuşaya icazəni rəsmiləşdirməklə həm də Xankəndiyə səfər etmək mümkündür. Bu səfərlərdə ancaq Azərbaycan vətəndaşları iştirak edə bilərlər. Avtobusla olan turlarda isə Azərbaycan vətəndaşları ilə yanaşı, xarici vətəndaşların da iştirakına şərait yaradılıb. Bunun üçün həm daxili, həm xarici turistlər yerli turizm şirkətlərinə müraciət edə bilərlər.

Bütövlükdə, Qarabağ bölgəsinin zəngin turizm potensialının istifadəsi və tanıdılması hədəflərimiz sırasındadır. Dövlət Turizm Agentliyinin tabeliyində "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılmasını, "Qarabağ Regional Turizm İdarəsi"nin formalaşdırılmasını bölgənin turizm imkanlarının səmərəli istifadəsi üzrə əhəmiyyətli tədbirlərdən hesab etmək olar. Cənab Prezident İlham Əliyev ümumilikdə bu sahənin, eləcə də Qarabağda turizm sektorunun inkişafına daim diqqət göstərir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda "Turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq" müəyyən edilmişdir.

İnfrastrukturun qurulması üzrə ötən il cənab Prezidentin iştirakı ilə Tərtər rayonunun Suqovuşan qəsəbəsində istirahət parkının açılışını, həmçinin Ağdamda Şahbulaq qalası ətrafında, eləcə də Xocavənddə Tuğ kəndində və Hadrutda turizm infrastruktur üzrə planlaşdırılan layihələri qeyd edə bilərik.

***–Turizm sektoru COP29 tədbirinə hazırdırmı?***

–COP29 kimi mötəbər tədbirə turizm sektorunun tam hazır olması üçün çoxşaxəli fəaliyyətlər davam etdirilir. Tədbirlə əlaqədar səfər edəcək qonaqların asan və rahat formada yerləşdirilməsi üçün vahid onlayn rezervasiya platforması istifadəyə verilib.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda olan 300-dən artıq yerləşmə yerlərinin auditi nəticəsində 200-dən çox hotelə ulduz dərəcəsi verilib. Həmin yerlərdə xidmət keyfiyyətinin artırılması məqsədilə 2000-ə yaxın personala peşə təlimləri, eləcə də mətbəx idarəedilməsi ilə bağlı təlimlər keçirilir. Həmçinin turizm bələdçilərinin və turizm könüllülərinin hazırlanması üzrə də proseslər davam etdirilir.

Əlbəttə, belə böyük miqyaslı tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin turizm imkanlarının tanıdılması, eləcə də biznes və işgüzar turizm potensialının təbliği baxımından önəm kəsb edir. Bu kimi tədbirlər həm də turizm sənayesi üçün yeni və fərqli bir təcrübə kimi çıxış edərək onun inkişafına da töhfə verir.

***–COP29-da turizmin yeri nədən ibarətdir?***

–COP29 üzrə 20 noyabr tədbirinin gündəliyində "Turizm Günü" xüsusi olaraq qeyd edilib. Fəaliyyət Gündəliyinin 14 təşəbbüsü sırasında bu günə qədərki COP tədbirləri üzrə ilk dəfə "Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üçün Qlobal Tərəfdaşlıq" (GPECAT) bəndi də yer alıb. "Turizm Günü" çərçivəsində dövlətlərin turizm üzrə məsul rəsmi nümayəndələrinin, həmçinin beynəlxalq təşkilatların və digər turizm qurumlarının Bakıda iclasının keçirilməsi, yekunda Bakı Bəyannaməsinin qəbulu planlaşdırılır.

Hazırda turizmin qlobal karbon emissiyasında birbaşa, dolayı və dəyər zənciri üzrə payı 8 faiz kimi qiymətləndirilir və qarşısı alınmazsa, bu rəqəmin 2030-cu ilədək 25 faizədək artması gözlənilir. Bu istiqamətdə əsas məqsəd COP26 tədbiri çərçivəsində qəbul olunan "Turizm sahəsində İqlim Fəaliyyəti üzrə Qlazqo Bəyannaməsi"nin əsas hədəfi kimi 2030-cu ilədək turizm sektoru üzrə emissiyaların 50 faizədək azaldılması, 2050-ci ilədək isə xalis sıfır emissiyaya nail olmaq müəyyənləşdirilib.

Həmçinin tədbir çərçivəsində ölkəmizin turizm imkanlarının tanıdılması məqsədilə stend hazırlanacaq və orada COP iştirakçılarına müxtəlif turizm məhsulları üzrə məlumatlar təqdim olunacaq.

**Müsahibəni apardı:**
**Aygün İBRAHİMOVA,**
**"Respublika".**